# BİZ MEHRİBAN DOSTLAR İDİK



**Həmzə Vəliməmmədov,**
**Əməkdar jurnalist**

## ŞAİR ŞƏKƏR ASLAN HAQQINDA XATİRƏLƏRİM

**Masamın üstündə bir albom. İçində uşaqlıq və gənclik illərimin şəkilləri. Vərəqlədikcə ötən günlər yada düşür, həmyaşıdlarım, dostlarım gözlərim önünə gəlir. Çoxu həyatda yoxdur. Kimi cavan, kimi orta yaşda dünyadan köçüb. Yazıçı dostum, təhsildaşım Qərib Mehdi demişkən, biz üzlü çıxmışıq, 80-ni yola salmışıq.**

Ötən əsrin 60-cı illəri. Dağ kəndlərinin birində dərs deyirdim.

Ayda bir bazar günü Lənkərana gedib pedməktəbdə oxuduğum illərdə üzv yazıldığım ədəbiyyat dərnəyinin məşğələlərinə qatılırdım. Rəhbəri "Sosialist subtropikası" qəzetinin məsul katibi Yusif Yusifov idi. Ona Qara Yusif də deyirdilər. Sonralar "Kommunist" qəzetinin xüsusi müxbiri işlədi. "A.S.Puşkin və Azərbaycan ədəbiyyatı" mövzusunda elmi iş yazdı, dissertasiya müdafiə elədi, Pedaqoji institunda bizə dərs dedi.Dərnəkdə gənc müəllimlər, həkimlər, fəhlələr, tələbələr şeirlərini, hekayələrini, oçerklərini oxuyurdular. Bəyənilən yazılar qəzetdə çap olunurdu.

Lənkəranın Boladi kəndindən Şəkər Aslanovla (Şəkər Aslan) 1960-cı ildə tanış olmuşdum. Sakit, azdanışan idi. Şeirlərini özünəməxsus pafosla oxuyardı. Günlərin birində onu təbrik etdik. Xalq şairi Nəbi Xəzri Şəkərin "Azərbaycan gəncləri" qəzetində dərc olunmuş şeirlərinə uğurlu yol arzulamışdı. Beləliklə, gənc şairin yaradıcılığı yolunda yaşıl işıq yandı. "Bahar yağışı" ilk şeirlər kitabı çap olundu, imzası təsdiqləndi.

***

Yaltaya müalicəyə gedirdim. Şəkərlə görüşdüm. Axşamüstü dəmir yolu vağzalına məni yola salmağa gəldi. Kitabı cibindən çıxarıb avtoqraf yazıb mənə uzatdı:

- İki il əvvəl mən də Krımda olmuşam, atam vuruşan yerləri gəzmişəm. Kitabımdakı ilk şeiri onun xatirəsinə həsr eləmişəm.

**Bir zamanlar bu yerdə,**
**Atam oda giribdir.**
**Onu düşmən gülləsi,**
**Burda yerə səribdir.**

**Düşünürəm fikrimə,**
**Görün nə gəlir indi,**
**Ata döyüşən yerdə,**
**Oğul dincəlir indi.**

### *İllər keçdi*

Bu tanışlığımız dostluğun təməlini qoydu. Şəkər hərdənbir Lerikə gəlirdi. Mən də Lənkərana gedəndə ona qonaq olurdum. Anası İnənin (adı yadımda belə qalıb) bişirdiyi boranılı plovdan doyunca yeyirdik. Kitabları çapdan çıxanda Boladidə bir araya gəlib poeziya məclisi qururduq.

Tale elə gətirdi ki, Şəkərə "LenInçi" (indiki "Lənkəran") mənə "Bolluq uğrunda" (indiki "Lerik") qəzetinin redaksiyasına rəhbərlik etimadı göstərildi. Əlaqələrimiz daha da möhkəmləndi. Şəkər artıq "Sənə nəğmə deyirəm" , "Məhəbbət fəsli", "Dənizin sahilində yaşayıram" şeirlər kitablarının müəllifi kimi dövri mətbuatda təqdir olunmuşdu, geniş oxucu auditoriyası tərəfindən bəyənilmişdi.

### *Müharibə mövzusu*

Şəkər Aslanı daim düşündürürdü. O, 23 yaşlı qəhrəman Baloğlan Abbasov haqqında poema yazmaq istəyirdi. Ukraynalı P.Pavlenkonun məktubdakı bir sətir yazı onu rahat buraxmırdı. "Azərbaycan şairləri, mən sizdən Baloğlan haqqında nəğmə gözləyirəm". O, 1974-cü ildə eloğlusuna həsr etdiyi " Sevgi günü" poemasını çap etdirdi. Şəkərin dilindən eşitdiyim bu misralar yaddaşımda qalıb:

**Ey vətən, borcluyam hələ,**
**Ömür qabaqdadır, başa düş məni!**
**Cəbhə dostlarımın atdığı güllə,**
**Susdurub yerində neçə düşməni.**

***

1976-cı ilin mayında rayon və şəhər qəzetlərinin redaktorları Moskvaya, Jurnalistlər Evinə bir həftəlik seminara çağırılmışdı.Şəkər Aslanla hava limanında təyyarəyə minik başlanmasını gözləyirdik. Jurnalistlər İttifaqının məsləhətçisi yazıçı Fərman Eyvazlı bizə yaxınlaşdı. Xalq şairi Məmməd Arazı Moskvadakı yazıçıların müalicə olunduğu xəstəxanaya aparmağı tapşırdı. Bir azdan unudulmaz şair ömür-gün dostu Gülxanım müəllimeylə gəldi. Minik başlandı, yerlərimizi tutduq. Məmməd Araz pəncərəyə tərəf əyləşdi. Uçuş zamanı hərdən Gülxanım müəlliməyə nəsə deyir, yenə ənginlikləri seyr edirdi.

**Şairi xəstəxanaya apardıq. Burada onun gəlişindən qabaqcadan xəbər tutmuşdular. Palatada yerləşdirildi. Gülxanım müəllimədən icazə alıb Jurnalistlər Evinə getdik. Səhəri yenə xəstəxanaya baş çəkdik. "Yastığın yüngül olsun" deyib ayrıldıq.**

Seminar təcrübə mübadiləsi aparmaqla keçdi. Tanınmış jurnalistlərin, naşirlərin söhbətlərini dinlədik. "Pravda" qəzetinin baş redaktoru Zimyaninlə dəyirmi masa arxasında görüşdük. Söhbətimiz iki saat vaxt apardı, suallarımıza konkret cavablar aldıq. Jurnalist dostum Əlövsət Bəşirli baş redaktoru nəşriyyatın birinci mərtəbəsində şəkil çəkdirməyə dəvət elədi.Məmnuniyyətlə razılıq verdi. Seminar keçirilən günlərdə Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində, SİTA-da, "Molodaya qvardiya" nəşriyyatında da olduq.

**Şəkər Aslan 1974-cü ildə rus poeziyasının nəhəngi Nikolay Tixonovla Lənkəranda tanış olmuşdu. Biz Moskvada olarkən Tixonovun Peredelkinodakı bağ evində yaşadığını öyrəndik. Görüşünə getdik. Köməkçi qadın dedi ki, Nikolay Semyonoviç məşğuldur, Moldaviyadan şairləri dəvət eləyib, şifahi poeziya jurnalının növbəti nömrəsini efirə hazırlayır. Üç saat gözləməli olduq.**



### *Nəhayət, görüş baş tutdu*

Şəkər Aslanın rus dilinə tərcümə olunmuş şeirlər kitabının əl yazmasını alıb özündə saxladı. Tixonov Şəkər Aslana məktubunda yazmışdı: "Siz gözəl bir diyarda doğulduğunuz üçün xoşbəxtsiniz. Burada dəniz də, dağlar və meşələr də, vadi və bulaqlar dainsanın uşaqlıq çağlarının yol yoldaşıdır. Burada gözlə görünən, ürəyi müqəddəs hisslərlə çırpmağa sövq edən gözəllik heç vaxt, heç zaman unudulmur".

***

70-ci illərdə respublikada həyat bulaq kimi qaynayırdı. Yeni adət-ənənələr yaranmışdı. Məhsul bayramları keçirilirdi. İlk təşəbbüsçüləri lənkəranlılar idi. İlə yekun vurulur, qazanılan uğurlar şeirlərdə, mahnılarda, tamaşalarda geniş təbliğ olunurdu. Qabaqcıllar orden və medallarla təltif edilir, minik maşınları və mənzillər hədiyyə verilirdi. Ən yüksək dövlət mükafatı - Sosialist Əməyi Qəhrəmanı adı alanlar da vardı.

1979-cu ilin söhbətidir. Dekabrın 7-də Şəkər Aslan mənə zəng edib dedi ki, sabah bizdə " Məhsul bayramı"dır. Mərkəzi Komitənin birinci katibi Heydər Əliyevin Lənkərana gəlməsi gözlənilir. Lerikin katibi Babəli Ağayevin və sizin iştirakınız da nəzərdə tutulub.Dekabrın 8-də biz Heydər Əliyevi qarşılayanlar arasındaydıq. Maşın karvanı şəhər stadionuna yan aldı. Mətbuat nümayəndələri üçün ayrılmış sırada yerimizi tutduq. Jurnalistlər qrupuna "İzvestiya" qəzetinin Azərbaycan üzrə xüsusi müxbiri Zaur Qədimbəyov rəhbərlik edirdi.

### *Bayram təntənəsi başlandı*

Lənkəranın özfəaliyyət kollektivlərinin, paytaxtdan gəlmiş incəsənət ustalarının çıxışları bir-birini əvəz etdi. Şairlər şeirlərini oxudular, qonşu rayonların nümayəndələri lənkəranlıları təbrik etdilər. İlin bol məhsulları nümayiş etdirildi. Şənlik başa çatdı. Heydər Əliyev Lənkəran Şəhər Partiya Komitəsinin birinci katibi İsa Məmmədovla lojadan düşüb jurnalistlərlə salamlaşdı. İsa Məmmədov Şəkər Aslanı respublikanın rəhbərinə təqdim etdi:- Bayramda səslənən şeirlərin müəllifidir. Sözlərinə mahnılar da bəstələnib.Heydər Əliyev üzünü Zaur Qədimbəyova tutub: - Dəstən şam yeməyinə qonağımdır,-dedi. Biz Xanbulaq dəryaçasında olduq, Şovi sovxozunun sitrus bağlarını gəzdik, Lənkəranda gedən quruculuq işləri ilə tanış olduq.

Axşamüstü "Lənkəran" restoranında yerimizi tutduq. Mən Şəkər Aslanla bir stoldaydıq. Heydər Əliyev və İsa Məmmədov gəldilər. Qonaqların hamısının iştirakı barədə məlumat verildi. Heydər Əliyev zala nəzər saldı, "Nəriman Həsənzadəni görmürəm" deyəndə kimsə tez çölə çıxdı.Elə bu an Nəriman müəllim gəldi, üzr istədi. Bu üç kəlmə söz rəhbərin fenomen yaddaşını, sənət adamlarına diqqətini bir daha nümayiş etdirdi.

***

**Şəkər Aslanla bağlı daha bir xatirə. 1987-ci il fevralın 18-də Jurnalistlər İttifaqının VII qurultayı keçirilirdi. Nümayəndələr Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının konsert zalına toplaşmışdılar. Müzakirələrin qızğın keçəcəyi qabaqcadan bilinirdi. Elə buna görə Mərkəzi Komitənin birinci katibi Kamran Bağırovun iştirak edəcəyi barədə məlumatımız vardı.**

Məruzə dinlənildi, müzakirələr başlandı. Adlarını çəkmək istəmədiyim iki yaltağın çıxışından sonra iş heyətində əyləşən "Kirovabad kommunisti" (rusca) qəzetinin redaktoru Nüşabə xanım Məmmədova söz aldı. O, çıxışının sonunda yaşadığı şəhərə Gəncə adının qaytarılmasını təklif etdi. Kamran Bağırov coşub - daşdı, fasilə elan olundu.

Cənub bölgəsinin qurultay nümayəndələri Nüşabə xanımın təklifini dəstəklədilər və bəyanat yazdıq. Şəkər Aslan birinci imza atdı. Məktubu iş heyətinə ötürdük. İclas başlandı. Kamran Bağırov jurnalist həmrəyliyi qarşısında aciz qalıb çıxıb getdi. Biz demokratik qaydada sədri, katibləri, plenumun tərkibini seçdik.

***

Ölkədə "bəylər"in at oynatdığı dövrdə Şəkər Aslan 25 il çalışdığı işindən - yerli qəzetdən uzaqlaşdırıldı. Bəhanə də bu idi ki, "sən partokratsan". Bir müddət işsiz qalan şairin səhhətində problemlər yaranmışdı. Bu dövrdə mən də redaktorluq fəaliyyətimə nöqtə qoymuşdum, rayon təhsil şöbəsinin müdiriydim. Ancaq mənim lerikli "bəylər"in hücumunu dəf etməyə həm gücüm çatdı, həm də sağlamlığım imkan verdi.

### *1993-cü ildə*

**Şəkər Aslanla müntəzəm əlaqə saxlayırdım. Bir gün "Söz" jurnalını təsis etdiyindən xəbər tutdum və gözaydınlığı verdim. Jurnalın Lerikdə yayılmasına az-çox köməyim dəydi. Bədii tərtibatı, yazılar bizim oxucuları razı salırdı.**

Bir müddətdən sonra yolum Lənkərana düşdü: Şəkər müəllimi yeni iş yerində -Azərbaycan Yazıçılar Birliyi Lənkəran Zona Şöbəsində tapdım, əlini sıxdım. Hiss etdim ki, əvvəlki Şəkər Aslan deyil, bədəni zəifləyib, yerişi ləngiyib. Söhbətimiz uzun çəkmədi, ürək-dirək verib ayrıldım.Ağır xəstə olmasına baxmayaraq Azərbaycanın Milli Qəhrəmanı Rövşən Abdullayev haqqında poema yazmışdı, ayrıca kitabda çap etdirmişdi. Bir nüsxəsini bizə göndərmişdi.

1995-ci il, iyun ayının 14-də kədərli bir xəbər eşitdim: dünən amansız əcəl Şəkər müəllimihaqq dünyasına qovuşdurub. O, baharda doğulmuşdu, baharda da torpağa tapşırıldı. Artıq 15 ilə yaxındır aramızda yoxdur.

***

Lənkəranda, Astarada Şəkər Aslanın qohum-əqrəbalarını yaxından tanıyıram, hər birinə hörmətim var. Ancaq onun yadigarları Qaya, Aysel və Aytel övladlarımtək mənə bu gün də əzizdir. Sevinirəm ki, onun təsis etdiyi jurnal Sevda xanım Əlibəylinin qələminin gücü ilə işıq üzü görür, adını yaşadır. Xatirələrimi Şəkər Aslanın "Payıma düşən ömür" kitabındakı bu misralarıyla bitirirəm:

**Ömür yollarında dumanlar, çənlər,**
**Min yol xatirəsi gələcək dilə.**
**Nə qədər yaşayır onu sevənlər**
**O qədər yaşayır özü də hələ.**